# Növbəti bürünc

**Təbii ki, Olimpiadada xalqımızın medal gözlədiyi idman növləri sırasında ilk pillədə güləş gəlir. Dünən daha bir pəhləvanımız ona göstərilən etimadı doğruldaraq Olimpiadanı bürünc mükafatla başa vurub. Bu idmançımız Giorgi Meşvildişvilidir.**




125 kq çəkidə yarışan güləşçimiz mübarizəyə 1/8 finaldan başlayıb. Dörddəbir final üçün misirli Diaeldin Abdelmottaleblə qarşılaşmadan təmsilçimiz 4:0 hesablı qələbə ilə ayrılıb.

Meşvildişvili yarımfinal uğrunda Lxaqvaqerel Munxturla (Monqolustan) güləşdən də qalib ayrılıb (12:2). Pəhləvanımız finala gedən yolda Geno Petriaşvili (Gürcüstan) ilə görüşüb.

30 yaşlı Petriaşvili üçqat dünya, ikiqat Avropa çempionu, Olimpiya Oyunlarının bürünc ("Rio-2016") və gümüş ("Tokio-2020") mükafatçısı idi. Yekunda rəqibinə 0:7 hesabı ilə uduzan güləşçimiz dünən bürünc medal uğrunda döşəyə çıxıb. Pəhləvanımızın rəqibi polşalı Robert Baran olub. Rəqibini 9:3 hesabı ilə məğlub edən Meşvildişvili "Paris-2024"ü bürünc medalla başa vurub.

Beləliklə, Azərbaycanın Olimpiadada qazandığı medalların sayı 6-ya yüksəlib (2 qızıl, 2 gümüş və 2 bürünc).

Azərbaycan.- 2024.- 11 avqust (№ 170).- S.1.